# MƏXFİLİK SİYASƏTİ

**Son yenilənmə:** 18 İyun 2026
**Veb-sayt:** https://datarace.ai
**Platformanın Sahibi:** “Milli Süni İntellekt Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti (MSİM)
Bu Məxfilik Siyasəti (bundan sonra – “Siyasət”), https://datarace.ai platformasının (bundan sonra – “Platforma”) istifadəçilərinin fərdi məlumatlarının toplanması, işlənilməsi, qorunması və ötürülməsi qaydalarını müəyyən edir. Platformada qeydiyyatdan keçməklə və/və ya ondan istifadə etməklə, siz bu Siyasətin şərtlərini qəbul etdiyinizi təsdiqləyirsiniz.

## 1. Tətbiq Olunan Qanunvericilik

Fərdi məlumatların emalı və mühafizəsi aşağıdakı normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir:

- “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu.
- “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu.
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələr.

## 2. Toplanan Fərdi Məlumatlar

Platformadan istifadə zamanı aşağıdakı kateqoriyalardan olan fərdi məlumatlarınız emal edilir:

- **İdentifikasiya məlumatları:** Ad, soyad, doğum tarixi. Qaliblərin yoxlanılması (KYC) mərhələsində isə əlavə olaraq şəxsiyyət vəsiqəsi və ya pasport məlumatları.
- **Əlaqə məlumatları:** E-poçt ünvanı, telefon nömrəsi, yaşayış ünvanı.
- **Maliyyə məlumatları:** Yalnız yarışlarda mükafat qazanan istifadəçilərin bank hesabı rekvizitləri (qalibin öz adına olmalıdır).
- **Texniki məlumatlar:** IP ünvan, brauzer növü, cihaz məlumatları və log faylları.
- **Davranış məlumatları:** Platformadakı fəaliyyətiniz, təqdimat (həll) tarixçəniz və yarış nəticələriniz.

## 3. Məlumatların Emalının Məqsədləri

Fərdi məlumatlarınız aşağıdakı konkret məqsədlər üçün işlənilir:

- İstifadəçi hesabının yaradılması, təhlükəsizliyinin təminatı və idarə edilməsi;
- AI/ML yarışlarının təşkili, həllərin avtomatik qiymətləndirilməsi və nəticələrin sıralanması;
- Mükafatların ödənilməsi, təhvil-təslim aktlarının və müqavilələrin rəsmiləşdirilməsi;
- Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi öhdəliklərinin yerinə yetirilməsi;
- İstifadəçilərə texniki dəstəyin göstərilməsi;
- Platformada saxtakarlıq, köçürmə, manipulyasiya və kiberhücumların qarşısının alınması;
- Yarışmanın ədalətli keçirilməsini, platformanın təhlükəsizliyini və etibarlı fəaliyyətini təmin etmək məqsədilə platforma qeydiyyat məlumatları ilə yanaşı, IP ünvanları və təqdim edilən faylları toplayır və emal edir. Bu məlumatlardan saxtakarlığın, sui-istifadənin, birdən çox hesabdan istifadənin, təhlükəsizlik risklərinin və texniki problemlərin aşkarlanması, qarşısının alınması və onlara cavab verilməsi üçün istifadə olunur.
- Statistik təhlillərin aparılması və Platformanın resurslarının təkmilləşdirilməsi;

- Qanunvericiliklə nəzərdə tutulmuş hallarda dövlət orqanlarının rəsmi tələblərinin icrası.

# 4. Məlumatların Saxlanma Müddəti

- Məlumatlar qanunvericiliyə və xidmətin xüsusiyyətlərinə uyğun olaraq yalnız zəruri müddətdə saxlanılır:

# 5. Üçüncü Tərəflərə Məlumatın Ötürülməsi

MSİM istifadəçilərin fərdi məlumatlarını üçüncü tərəflərə satmır və kommersiya məqsədilə paylaşmır. Məlumatlar yalnız aşağıdakı məhdud hallarda ötürülə bilər:

- İstifadəçinin aşkar və yazılı razılığı olduqda;
- Mükafat ödənişlərinin icra edilməsi məqsədilə bank və müvafiq ödəniş sistemlərinə;
- Yarışın Ev Sahibi olan korporativ tərəfdaşlarla (yalnız qaliblərin mükafatlandırılması və yoxlanılması məqsədilə);
- Texniki infrastruktur və hostinq təminatçılarına (məlumatların təhlükəsiz saxlanması şərtilə);
- Qanuni tələblər əsasında məhkəmə, hüquq-mühafizə və ya digər dövlət orqanlarına.

# 6. Məlumatların Təhlükəsizliyi

Fərdi məlumatlarınızın icazəsiz girişdən, dəyişdirilmədən, yayılmadan və ya məhv edilmədən qorunması üçün Platformada aşağıdakı təhlükəsizlik tədbirləri tətbiq olunur:

- HTTPS protokolu vasitəsilə və məlumat bazası səviyyəsində güclü şifrələmə;
- Çoxfaktorlu autentifikasiya (MFA) sistemləri;
- Platformanın infrastrukturunun müntəzəm təhlükəsizlik auditi;
- MSİM daxilində fərdi məlumatlara giriş hüquqlarının ciddi şəkildə məhdudlaşdırılması (yalnız səlahiyyətli işçilər üçün).

# 7. İstifadəçilərin (Məlumat Subyektlərinin) Hüquqları

"Fərdi məlumatlar haqqında" Qanuna uyğun olaraq, Platformanın istifadəçisi kimi aşağıdakı hüquqlarınız mövcuddur:

- **Məlumatlandırılma və Çıxış hüququ:** Özünüz barəsində toplanmış məlumatların mövcudluğu, məzmunu, onların emal məqsədləri, üsulları və ötürüldüyü üçüncü tərəflər barədə məlumat almaq, surətini tələb etmək;
- **Düzəliş və dəqiqləşdirmə hüququ:** Köhnəlmiş, yanlış və ya qeyri-dəqiq məlumatlarınızın düzəldilməsini və yenilənməsini tələb etmək;
- **Silinmə (məhv edilmə) hüququ:** Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, fərdi məlumatlarınızın silinməsini tələb etmək;
- **Emalın məhdudlaşdırılması və Etiraz hüququ:** Məlumatların emalının müvəqqəti və ya daimi dayandırılmasını tələb etmək, qanunla məcburi olmayan hallarda emala yazılı etiraz etmək;
- **Avtomatlaşdırılmış qərarlara etiraz:** Yalnız avtomatlaşdırılmış qaydada qəbul edilən və hüquqlarınıza təsir edən qərarlara etiraz etmək;
- **Məlumat daşınması hüququ:** Məlumatlarınızı maşın tərəfindən oxuna bilən formatda əldə etmək və ya başqa operatora ötürülməsini istəmək;
- **Razılığı geri çəkmək:** Razılıq əsasında həyata keçirilən emal proseslərinə verdiyiniz razılığı istənilən vaxt geri götürmək;

- **Şikayət hüququ:** Hüquqlarınızın pozulduğunu hesab etdikdə müvafiq icra hakimiyyəti orqanlarına və ya məhkəməyə müraciət etmək.

**Vacib qeyd:** Yarışın nəticələri tam yekunlaşmadan və ya mükafat rəsmiləşdirilmədən öncə hesabınızın və məlumatlarınızın silinməsini (və ya razılığın geri götürülməsini) tələb etmək mükafat hüququnun itirilməsinə (mükafatdan imtinaya) səbəb ola bilər.

## 8. Sorğuların Cavablandırılması Qaydası

Yuxarıda qeyd olunan hüquqlarınızı həyata keçirmək üçün şəxsiyyətinizi təsdiq edən sənədlə (və ya elektron imza ilə) info@datarace.ai ünvanına rəsmi sorğu göndərə bilərsiniz. MSİM daxil olmuş sorğuları qanunvericiliyə uyğun olaraq ən geci **15 (on beş) iş günü** ərzində araşdırır və cavablandırır.

## 9. Siyasətə Dəyişikliklər Edilməsi

MSİM bu Məxfilik Siyasətini istənilən vaxt birtərəfli qaydada yeniləyə bilər. Əhəmiyyətli dəyişikliklər baş verdikdə istifadəçilərə e-poçt və ya Platforma daxili bildiriş vasitəsilə məlumat veriləcəkdir. Dəyişikliklər dərc edildiyi tarixdən sonra Platformadan istifadəyə davam etməyiniz, yenilənmiş şərtləri qəbul etdiyiniz anlamına gəlir.

## 10. Əlaqə Məlumatları

Məxfilik və fərdi məlumatların qorunması ilə bağlı hər hansı sualınız və ya müraciətiniz olduqda bizimlə əlaqə saxlaya bilərsiniz:

- **Şirkət:** Milli Süni İntellekt Mərkəzi MMC (MSİM)
- **E-poçt:** info@datarace.ai
- **Ünvan:** Bakı 1010, Nizami küçəsi 90 A